# Sadəcə, Ustad

## Hər kəsə örnək ola biləcək bir yazar ömrü yaşayır Rafiq Savalan

**Metr, boss, şef, korifey...nə bilim, bəlkə də müxtəlif dillərdə bundan da tutumlu, ağır çəkili və əhatəli hansısa ifadə, söz var ki, onu həyatını və ömrünü əsl İnsan kimi yaşayanlar haqqında söyləyirlər! Mənsə ona sadəcə USTAD deyirəm, bəzəksiz-düzəksiz, hamımızın anlayacağı və tutumunu təsəvvür edəcəyi sadə bir kəlmə ilə tanıdığım və sevdiyim Sənətkarın portretini sözlərin köməyi ilə çəkməyə, hər gün gördüyüm adamın çoxlarına məlum olmayan düşüncə və duyğularını ifadə edəcək cizgiləri tapmağa çalışacam! Beləliklə:**



### DAĞLI MƏHƏLLƏSİNİN ZİYALI OĞLU

Rafiq İmanqulu oğlu Ağayev (Rafiq Savalan) 1940-cı ildə Bakının Dağlı məhəlləsində doğulub. Babası Ağacan ağa Ərdəbildən Bakıya pənah gətirəndə başına gələcək müsibətləri də göz önünə almışdı. Taleyi işğalçı qüvvələrin əli ilə yenidən yazılan Azərbaycanda arzu etdiyi rahatlığı və güvəni tapmayan qərib ailə daha bir repressiya tufanından yaxa qurtarmaq üçün Türkmənistana köçmək məcburiyyətində qalır və bir də bu yerlərə 1920-ci ildə qayıda bilir!

Zaman hər şeyi yavaş-yavaş sahmana salır. Ağacan ağanın oğlanlarından biri-İmanqulu da bir dağlı gözəlinə könül verir və gənclər təzəcə yuva qurmaq arzusu ilə yeni həyata başlayanda dünya 2-ci Cahan savaşının xəbəri ilə sarsılır. Onun bir yaşı tamam olmamış atasını əsgər çağırırlar, qohumları başsız qalan ailəyə pasibanlıq eləmək üçün "gülü burnunda solan" cavan gəlini və onun körpələrini Xızının Sayadlar kəndinə- ata evinə aparırlar. Rafiqgil 2 il orada yaşayır və atası sağsalamat geri dönəndən az sonra da Ağayevlər yenə köç boğçası bağlamalı olur. 1951-ci ildə atasını Neftçalaya ezam edirlər və ailə 7 il orada qalır. Rafiq də məktəbə elə orada gedir və bir neçə il rayonda oxuyur.

Ailə Bakıya qayıdanda artıq Rafiq böyük oğlan idi, Dağlı məhəlləsi ilə Həmşəri Palanının qovuşduğu yerdə yaşayanlar onu məhəllənin aristokratı sayırdılar. Bu məhəllənin bəlli xüsusiyyətləri, ənənələri vardı, amma heç kəs onu o qapalı dairəyə salmağa cəhd eləmirdi. Qonum-qonşudakı "cayıllar"-ahıllı-cavanlı hər kəs onu görəndə ehtiramla salam verir, qoltuğundakı kitab-dəftərə həsədlə, qibtə ilə baxırdılar. Rafiq də məhəllənin "ittiham və inamını" Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinə qəbul olunmaqla doğruldur. Tələbə kimi fəallığı ilə seçilir. Rafiq Ağayevi başqa gənclərdən fərqləndirən bir xüsusiyyəti vardı. Mütaliə eləməyi, eşitdiklərini, oxuduqlarını yaddaşına köçürməyi, texniki elmlərə bələd olmağı xoşlayırdı. Hətta bir ara rəqs ansamblının üzvü kimi konsertlərdə də iştirak edirdi. Amma könül verdiyi yazı-pozudan ayrılmırdı, satirik məqalələr, beynəlxalq felyetonlar yazırdı.

### "QORA TUTMAMIŞ MÖÜZ OLDUM"

1964-cü ildə radioya gəlişi ilə həyatının yeni bir mərhələsi başladı. Beynəlxalq icmalçı kimi maraqlı şərhlər hazırladı, Xəbərlər proqramı üçün müsahibələr aldı, tədricən radio onun həyatının bir parçasına çevrildi. Müxtəlif redaksiyalarda çalışdı. Ömrünün ən gözəl, yaradıcılığının ən dolğun və məhsuldar illərini yaşadı. Günlərin bir günü isə onu Uşaq verilişləri redaksiyasına baş redaktor təyin etdirlər...

O vaxt radio və televiziya uşaq və yeniyetmələrin maariflənməsi, həyat bilgiləri barədə məlumat alması üçün böyük sovet təbliğatının əsas dayaqlarından biri sayıldığından əməkdaşlar da auditoriyanın yaş xüsusiyyətlərini nəzərə alaraq müxtəlif verilişlər hazırlayırdılar. Rafiq Ağayev də ilk fürsətdəcə illər boyu oxuyub öyrəndiyi bilikləri balacalarla paylaşmaq istəyini həyata keçirdi... Sovet dönəmində xoruzdan baba düzəldənlərin etirazına və qadağasına rəğmən illərdən bəri adının çəkilməsi belə yasaq sayılan Savalan dağının əzəmət və vüqarını dillər əzbəri edəcək bir ad seçdi verilişinə: "Biləyən"! Onun əsas qəhrəmanı Savalan baba oldu! Radionun "Bulaq" verilişindən sonra o dövrün, indiki yazarların təbirincə desək, ən reytinqli verilişə çevrildi "Biləyən".

"Biləyən" Savalan babanın dili ilə danışdı uşaqlarla! Müdrik el ağsaqqalı, hər şeydən xəbərdar səyyah, hər suala cavab tapan çoxbilmiş Savalan baba o qədər səmimi, o qədər mehriban və o qədər ürəkdən danışırdı ki, hər bir dinləyici özünü onun yanında hiss edir, ona sual verir, ondan qənaətbəxş cavab alır və onu öz doğma babası, ailəsinin bir üzvü sayırdı! Bu maraqlı və çox böyük maarifçilik yükü olan verilişin Savalan babası-36 yaşlı Rafiq Ağayev bütün dünyanın məşhur şəxsiyyətləri, tarixi abidələri, qeyri-adi hadisələri, elm, bilik, mədəniyyət xadimləri haqqında məlumat verir, uşaqların yazdığı min bir sualı populyar elmi dildə izah edir, onlara qonaq gedir, onları studiyaya qonaq çağırır, bir sözlə, yeniyetmələrə çox vaxt məktəbin və valideynlərin verə bilmədiyi həyat dərsini öyrədirdi. O dönəmin məktəbliləri, yəni bu gün yaşı 50-ni aşan elə bir dinləyici tapmazsınız ki, mərhum aktyorumuz Sadıq Hüseynovun "Salam, mənim istəkli nəvələrim, nəticələrim!" sözlərini xatırlamasın, unudulmaz diktorumuz Ofeliya Sənaninin hər dəfə "Biləyənəm, biləyən, biliklərin məndədir, əlini ver dost olaq, mən biləni sən də bil!" çağırışı ilə işini- gücünü bir kənara qoyub radioya qulaq kəsilməsin. "Biləyən" həm ailəvi tərbiyə məktəbi idi, həm saf, təmiz, şipşirin Azərbaycan dilinin qoruyucusu və təbliğatçısı, həm də ünsiyyət, səmimiyyət qaynağı idi. Ofeliya xanımın hər dəfə "baba, ay baba!" -müraciətinə- "can baba" -deyən böyük sənətkarımızın səsindəki o qayğını, şəfqəti, sevgini hiss etməmək mümkün deyildi. Aktyor Savalan babanı o qədər böyük sevgiylə, ürəklə oynayırdı ki, sadaladığım bütün bu keyfiyyətlər Bakıdan min kilometrlərlə uzaqda onu dinləyənlərin yaddaşına hopurdu. Sadıq Hüseynov məhz bu verilişlə daha çox tanındığını, sevildiyini, məşhurlaşdığını etiraf edirdi həmişə və hər müsahibəsində də minnətdarlıq hissi ilə o verilişdə iştirakından söz açır, bütün yaradıcı heyətin, ilk növbədə isə Rafiq müəllimin şəxsən onun-yəni Savalan babanın üstündə çox böyük haqqı olduğunu dilə gətirirdi.

-Biz indi belə verilişlərin, sözün həqiqi mənasında, həsrətini çəkirik. Çünki bu səpkili verilişlərin bütün personajları ilk növbədə böyük bir auditoriya üçün işlədiyimizi bilirdi-deyir Rafiq müəllim,- hər kəsə, ilk növbədə də verilişin yaradıcılarına bəlli idi ki, ünvanımıza təkcə Azərbaycanın dörd bir yanından deyil, həttə o vaxt qapıları dünyanın bir çox dövlətlərinin, ilk növbədəsə bizim üzümüzə bağlı olan İranın şimal əyalətlərindən göndərilən məktubları yazan uşaqlar məhz bu verilişin qəhrəmanlarına bənzəməyə çalışırlar. Mən uşaqlara Savalan babanın dili ilə yurd, Vətən sevgisi təlqin edirdim. Uşaqlara yaşadıqları yerlərin tarixi abidələri, kənd, bulaq, dərə-təpə adları barədə əfsanə və rəvayətləri toplamağı tapşırırdım. Aldığımız məktublarda o qədər maraqlı faktlar olurdu ki...

"Biləyən" Rafiq müəllimə Savalan adını qazandırdı (bu təxəllüs ona Ağayev soyadını çoxdan unutdurub). Hər veriliş üçün seçdiyi mövzunun əhatəli, maraqlı olması ilə yanaşı dialoqların əyləncəliliyinə də çalışırdı. Asudə vaxtı bu günkü yaşıdlarımınkı qədər çeşidli, məşğuliyyət ünvanları o qədər də rəngarəng olmayan uşaqlar "Biləyən"ə ən yaxın sirdaşı kimi üz tuturdu. Rafiq müəllim bu gün də o məktublardan həyəcansız danışa bilmir. Deyir ki, Savalan baba mənim övladlarımdan biri sayıla bilərdi, ancaq mən onun qarşısında elə o dinləyici uşaqlar kimi məsuliyyət daşıyırdım. İllər sonra USTAD o günləri təbəssümlə xatırlayır və zarafatla: "Mən qora tutmamış möüz olanlardanam!" -deyir: "Çoxları bilmirdi ki, Savalan babanı yazan 35 yaşlı cavan, dəli-dolu bir oğlandır ".

### CANLI ENSİKLOPEDİYA

Bu cavan oğlan indi keçib gəldiyi zəngin və maraqlı həyat və yaradıcılıq yolu barədə saatlarla danışmaq və hətta bütün detalları dəqiqliyi ilə xatırlamaq qabiliyyəti ilə həmsöhbətlərini heyrətdə qoymağı bacarır. Həyatın amansız qovğaları onun yaddaşını pozmağa şükür ki, acizdir. Azərbaycan klassiklərindən elə bir sair və yazıçı tapılmaz ki, ondan ən azı bir bənd şeir söyləməsin, elə bir tarixi şəxsiyyət yoxdur ki, Rafiq müəllim onun haqqında məlumatsız olsun. Hətta bu yaxınlarda mənözünü azdan-çoxdan fəal oxucu sayan mən, internetdən oxuduğum bir xəbəri Ustada çatdırmağa tələsdim. Dedim ki, bütün dünya Amerikanın Kolumb tərəfindən kəşf edildiyini söyləyir, amma...

Sözümü yarımçıq kəsdi:

- Türk səyyahı və xəritəçisi Piri Rəisi deyirsən? Bilirəm...

Rafiq müəllim mənim təəccüblə ona baxdığımı görüb davam etdi:

- Mən "Biləyən"i hazırlayanda belə nadir şəxsiyyətlər haqqında məlumat toplamaq üçün ensikopediyalar vərəqləyir, kitablar oxuyur, maraqlı sənədli filmlərə baxırdım. Öyrənib bildiklərimi bir yerə toplayır, başqa mənbələrlə tutuşdurur, ən dəqiq variantı seçirdim. Hələ o vaxt mən bilirdim ki, Moskvadakı məşhur Kreml kompleksini Kərəməli adlı bir memar inşa edib. İndi hamı bu barədə danışır. Əslən Şamaxılı olan Əliş Kərimli sovet yazıçısı Sergey Borodinin "Dmitriy Donskoy" tarixi romanının əsas personajlarından biri kimi də yaddaşımda qalıb. Onun çox maraqlı taleyi var, təəssüf ki, indi bizim cavan yazıçılarımız, jurnalistlərimiz nədənsə milli mədəniyyətimizdə mühüm rolu olan belə tarixi şəxsiyyətlərin həyatından bədii və sənədli əsərlər yazmağa maraq göstərmirlər.

- Bəlkə elə siz yazasınız-deyirəm-kifayət qədər məlumatlısınız.

- Yox, mənim hövsələm çatmaz-deyirtədqiqat işi həm də bir gənclik şövqü, gənclik marağı istər. Mən vaxtında sözümü demişəm.

### TOLSTOYUN TƏRCÜMƏÇİSİ

Deyib sözünü, həm də çox mükəmməl, ustalıqla deyib! Bədii və elmi əsərlərin dilimizə tərcüməsi sahəsində Rafiq Savalanın xidmətləri danılmazdır.(Hərçənd ki, danırlar!) O, məşhur L.N.Tolstoyun səksəninci illərin əvvəllərində "Yazıçı" nəşriyyatında çap olunan 14 cildliyinin 11-ci və 14-cü cildlərində toplanmış əsərlərini, A.P.Çexovun "İvanov" pyesini, V.V.Ovçinnikovun "Palıd kökləri" adlı populyar əsərini, A.Dudaryevin "Astana", Ş.Başbəyovun "Ağ atlar üçün vals" pyeslərini, "1860-1880-ci illər rus jurnalistikası tarixi"ni, F.Məmmədovanın "Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası" monoqrafiyasını, tarixçi İ.Əliyevin "Qarabağ məsələsi" kitabını yüksək keyfiyyətlə Azərbaycan dilinə tərcümə edib.

Azərbaycan televiziyasının Qızıl fondunda Rafiq Savalanın tərcümə edib səhnələşdirdiyi beş iri həcmli tamaşa saxlanılır və Ustad çox sevdiyi tarixi və dini mövzuda 100-dən çox bədii filmin (4 serialın) redaktorudur. Mətni dilimizə çevirib, redaktorluq məsuliyyətini öz üzərinə götürüb, 60-dan çox telefilmin, 100-ə yaxın cizgi filminin redaktoru olmaqla yanaşı, həm də dublyaj rejissoru olub. 22 seriyalı "İmam Əli" və 29 seriyalı "İmam Rza" filmlərinin dublyaj prosesinə başçılıq edib. "Dağlı çörəyi" filminin müəllifi olub.

Ustad indiyədək 51 illik jurnalistlik sevdasına xəyanət etməyib. Yenə də gənclik həvəsi, amma peşəkar dəsti-xətti ilə həmkarlarının köməyinə çatır, verilişlər redakə edir, mövzular verir, bəzən onların ekran həllininin də konturlarını cızır, həvəsi olanda dünyanın möcüzələri barədə maraqlı süjetlər hazırlayır.

### ƏXLAQLI ADAMDAN QORXMAYIN

- İnsanda ən çox dəyərləndiyim keyfiyyət əxlaqdır- deyir-əxlaq - ağıldır, savaddır, mədəniyyətdir, məsul bir dövlət tapşırığını vicdanla yerinə yetirməkdir! Bu sözün asılqanından hər şey asmaq olar: ailə məsuliyyətini də, cavabdehliyi, vəfanı da, sədaqəti də, kişiliyi də, dözümü, dəyanəti də, vətəndaşlıq, insanlıq hissini də, böyüklüyü də, satqınlığı, öfkəni də, sevgini də....

Rafiq Savalanın uşaqlar üçün iki kitabı çap olunub, "Niğarın nağılları" və "Ağ qızılın nağılı", bunları Tolstoyu tərcümə etməzdən əvvəl yazıb...

Deyirəm ki, bu kitabların sayı daha çox ola bilərdi. Əgər bu qədər "tənbəllik" eləməsəydiniz. Televiziya və radionun girdabından xilas olmamağınızın da şəxsi yaradıcılığınızı ikinci plana çəkməkdə "rolu" danılmazdır.

Cavabı həmişəki kimi hazırdı:

- Vallah, mən bu halımdan məmnunam. İndi kitaba, bədii ədəbiyyata meyl göstərən çox azdır. Dahiləri oxuyan yoxdur, məni kim oxuyacaq...

Gözlərindəki kədəri, işıqlı çöhrəsindəki nisgili sezməmək mümkün deyil Hacı Rafiq Savalanın... Ancaq nə qəm... yaşadığı mənalı, dolğun, keşməkeşli, mübarizələrlə dolu, cəsarətli bir ömür yolu var bu qocaman dünyada. Xoşbəxtdir ki, sözünü istənilən məqamda deməyi bacarır! Xoşbəxtdir ki, hörmətli, izzətli bir İNSAN ömrü yaşayır. Və nə yaxşı ki, mən Rafiq müəllimlə belə yaxından tanışam, dostam! Ən çətin məqamda, böyük qardaşım, atam kimi məsləhət alacağım bir Şəxsiyyət var!

Hər kəsə örnək ola biləcək bir yazar ömrü, çörəyi qələmindən, dolanışığı sözündən çıxan bir USTAD ömrü yaşayır Rafiq Savalan, əziz dostumuz Hacı Rafiq! Çox sevdiyiniz Savalan kimi vüqarlı, uzun ömürlü və sağlam olun, bizim canlı ensiklopediyamız! Sizi çox sevirik!!!!

**TELLİ PƏNAHQIZI**